*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2025*
*Səh. 354-359*

https://doi.org/10.62837/2025.4.354

**SEVDA QASIMOVA**
***AMEA Folklor İnstitutunun böyük elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru***

# QURBANİ VƏ AŞIQ YARADICILIĞI

**Xülasə**

Məqalədə Azərbaycan xalqının zəngin və mənəvi sərvəti olan aşıq yaradıcılığı haqqında ərtaflı məlumat verilir. Ümumən aşıq yaradıcılığında olduğu kimi, insanların dünyagörüşünü, dostluq, sədaqət, vətənə, ailəyə sevgi hisslərini tərənnüm edən şeirlərdə klassik forma ilə yanaşı, xalq ədəbiyyatı ünsürləri də araşdırılır. Folklora məxsus olan obrazlılıq, bədii dil, təbiilik aşıq ədəbiyyatı nümunələrində də başlıca şərt kimi görtərilir. Məqalədə ustad aşıqlar tərəfindən yaradılan dastanlar, aşıq şeirinin nümunələri haqqında aparılan təhlillər aşıq yaradıcılığı üslubuna əsaslanır. Bilirik ki, Qurbani xalq ədəbiyyatından bəhrələndiyi kimi, aşıq yaradıcılğının inişafında da əvəzsiz xidməti olan sənətkardır. "Aşıq yaradıcılığı və Qurbani" də məhz bu baxımdan diqqəti cəlb edir. Qurbaninin aşıq yaradıcılığı ənənələrinə, klassik irsə sadiq qalaraq yazdığı şeirlər aşıq mühitinə olan marağının nəticəsidir. Məqalədə bütün bu qənaətlər ümumiləşdirilir.

**СЕВДА КАСЫМОВА**

**Гурбани и ашыгское творчество**

**Резюме**

В статье представлены подробные сведения об ашыгском творчестве, которая является богатой и духовной ценностью азербайджанского народа. Как и в ашыгском творчестве, в целом, также в стихотворениях, которые воспевают мировоззрение людей, их чувства дружбы, верности, любви к Родине, семье, наряду с классической формой исследуются элементы народной литературы.

Образность, художественный язык, естественность, которые свойственны фольклору, также представляются как основное требование в образцах ашыгской литературы. В статье анализы эпосов, образцов ашыгской поэзии, которые были созданы мастерами-ашыгами основаны на стиле ашыгского творчества. Известно, что Гурбани является мастером слова, который обогащаясь за счет народной литературы, оказал неоценимую услугу в развитии ашыгского творчества. «Ашыгское творчество и Гурбани» привлекает внимание именно с этой же точки зрения. Стихи, которые были написаны Гурбани, оставаясь верным традициям ашыгского творчества, классического наследия, являются результатом интереса к ашыгской среде. В статье все эти выводы обобщаются.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2025*
*Səh.357-359*

**SEVDA GASIMOVA**

# GURBANİ AND ASHUG CREATIVITY

The article provides detailed information about ashug's creativity with the rich and moral wealth of the Azerbaijani people. In addition to the classic form in the poems who sing their love for the family, the elements of folk literature are also being investigated in general as ashug's creativity. The folklore images, literary language and naturalness is also as a key condition in samples of ashug literature. The epics created by master ashugs, analysis samples of ashug poems are based on the style of ashug creativity in the article. We know that as Gurbani benefited from folk literature is also a master who is an invaluable service in the development of ashug's creativity. In this regard, "Ashug creativity and Gurbani" attract attention. The poems written by Gurbani's classical heritage and ashug's creative traditions are the result of his interest in the ashug environment. All these results are generalized in the article.

**Açar sözlər:** aşıq yaradıcılığı, folklor, yazılı ədəbiyyat, atalar sözləri, dastan, Qurbani, elmi yenilik, xalq düşüncəsi, folklor düşünəsi, klassik ədəbiyyat

**Ключевые слова:** ашыгское творчество, фольклор, письменная литература, пословицы, эпос, Гурбани, научная новизна, народное мышление, фольклорное мышление, классическая литература

**Keywords:** ashug creativity, folklore, written literature, proverbs, epic, Gurbani, scientific innovation, people's thought, folklore thinking, classical literature

Aşıq yaradıcılığının folklorla yazılı ədəbiyyat arasında körpü rolu oynadığı hər birimizə məlumdur. Belə ki, bu yaradıcılığın bir qolu yazılı ədəbiyyata, digər qolu xalq ədəbiyyatına bağlıdır. Bununla hər iki ədəbiyyatın inkişafına böyük təkan olmuşdur. Çünki aşıq yaradıcılığı yazılı ədəbiyyatla qarşılıqlı təmas quraraq inkişaf etmişdir. Aşıq poeziyasının nümayəndələri xalq ədəbiyyatı ilə bahəm, yazılı ədəbiyyatdan da bəhrələnmiş, u qaynaqlardan da qidalanmışlar. Həm də aşıq poeziyası üslubunda yazıb-yaradan sənətkarların yazılı ədəbiyyata müraciət etməyi onların yaradıcığının bədii ifadə vasitələri ilə zənginləşməsinə səbəb olmuşdur. Onu da qeyd edək ki, unudulmaqda olan bir çox aşıq poeziyası nümunələrinin, eləcə də dastan nümunələrinin itib-batmağının qarşısını məhz yazılı ədəbiyyatla olan bu qarşılıqlı əlaqə kəsmişdir, onları unudulmaq təhlükəsindən qurtarmışdır. Aşıq ədəbiyyatı nümunələrinin toplanıb yazıya alınması orta əsrlərin son yüzilliklərinə təsadüf etmiş, bəzi hallarda toplama işi nizamsız halda görülsə də, həm şifahi, həm də yazılı yolla qorunaraq dövrümüzə qədər gəlib çatmışdır. Adlarını hər zaman çəkdiyimiz həm məhəbbət, həm qəhrəmanlıq dastanların yaranmasında aşıqların böyük rolu olmuşdur. Bunun da tarixi erkən orta əsrlərə qədər gedib çıxır və bu sənətkarlar aşıq ədəbiyyatının görkəmli nümayəndələri hesab olunur.

"Dastani-Əhməd Hərami" və Əlinin "Qisseyi-Yusif" əsəri, Molla Qasım, Yunis Əmrə və Şah İsmayıl Xətai yaradıcılığı ilə özününün zirvə nöqtəsinə qalxan ana dilində yazılan poeziyamız xalq şeiri, aşıq şeiri üslubunda yazan M.V.Vidadinin və M.P. Vaqifin dövründə də eyni zirvədə dayanmışdır. Orta əsrlər aşıq şeiri üslubunda yaranan anadilli poeziya və aşıq ədəbiyyatında türklərin həyata baxışı, poetik duyumu, insana və ətraf aləmə münasibəti məhz qəhrəmanlıq dastanlarından başlayıb Yunis Əmrə və Əhməd Yasəvi, Məhəmməd Füzuli yaradıcılığına qədər inkişaf edən bir ənənədir. Klassik poeziya ilə xalq ədbiyyatını özündə ehtiva edən Məhəmməd Füzuli, Şah İsmayıl Xətai yolunun davamını aşıq ədəbiyyatına bağlı olan Dirili Qurban, Miskin Abdal layiqincə inişaf etdirib. Azərbaycan qədim və orta əsr poeziyası məhəbbətin tərənnnümünüə görrə seçilir. Aşıq şeirinin inkişafı və bu tərzdə poetik nümunələrin yazılması, bununla bahəm ədəbiyyata yeni nəfəs, ruh gətirmək asan deyildi. Bu cəhətdən Qurbani şeirləri diqqətimizi cəlb edir. Dirili Qurban (1477-1550) sənətkarlıq baxımından mükəmməl aşıq seiri nümunələrinin müəllifidir.

Elmi mənbələrdən də oxuyuruq ki, ozan-aşıq sənətinin mərhələləri məlumdur. Bunun ən bariz nümunəsi professor Nizami Xəlilovun tədqiqatlarında göstərilir: " Ozan-aşıq sənətinin yaranması, inkişafı və təkmilləşməsi prosesi bir neçə mərhələdən keçmişdir: 1. Çox qədim dövrlərdən başlayaraq XII əsrə, yəni Nizami dövrünə qədərki mərhələ. 2. XII yüzillikdən başlayaraq XVI yüzilliyə qədər olan mərhələ. Bu mərhələ ozanqopuz və aşıq-saz mərhələsi kimi özünü göstərmişdir. Hətta bu mərhələdə aşıq-saz üstünlük təşkil etmişdir. 3. XVI yüzillikdən başlayaraq müasir çağımıza qədərki mərhələdə qopuz-ozan tamamilə aradan çıxmış, aşıq-saz hökmranlıq etmişdir (2, 40)

Tədqiqatlardan da məlumdur ki, qopuz adlı musiqi aləti 12-13-cü əsrlərlə müqayisədə orta əsrlərdə daha çox inkişaf etmiş, o dövrdəki sazla eyniyyət təşkil edirdi. Təbii ki, sazın mizrabla çalışmağı isə onun özəlliyidir.

Tədqiqatçı alim R.Əliyevin də qeyd etdiyi kimi: "Klassik ədəbi dil ibtidai savadlı adamların başa düşməsi üçün çətin bir dil idi. Lakin bu ədəbi dil Azərbaycan xalqının orta əsrlərdə yaratdığı ədəbi, fəlsəfi, dini, elmi, tarixi əsərlərin dili kimi milli mədəniyyətimizin yaranmasında və sonrakı nəsillərə çadırılmasında misilsiz rol oynadı. Bu Azərbaycan mədəniyyətinin islami epoxasının, qızıl əsrlərin dilidir, qiymətsiz milli sərvətimizdir (1, 155).

Nəticə olaraq qənaətlərimizdən biri budur ki, Azərbaycan ədəbi-bədii dilinin inkişafında və formalaşmasında aşıq poeziyasının müstəsna xidmətləri var. Molla Qasım, Şah İsmayıl Xətai, Qurbani, Məhəmməd Əmani, Saleh Şirvani, Şikəstə Şirin, Molla Vəli Vidadi, Molla Pənah Vaqifin yaradıcılığında inkişaf edərək formalaşan ədəbi dilimiz klassik ədəbiyyatda özünün zirvə nöqtəsini yaşamışdır. Aşıq şeirinə məxsus olan söz və üslubiyyət klassik şeir nümunələrinə təsir etmişdir.

Şifahi xalq ədəbiyyatının inkişafında və zənginləşməsində böyük payı olan Qurbaninin bu gün ədəbiyyatımızda və insanların yaddaşında müəllifi olduğu və hə-

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2025*
*Səh.357-359*

yatının, yaşadığı cəmiyyətin, hiss və duyğularının ifadə olunduğu xeyli sayda şeir nümunələri var. Hələ XVIII əsrdə təcnisin ən çox rast gəlindiyi mənbə Xəstə Qasımın yaradıcılığı olsa da, qeyd edək ki, bu şeir şəklinin ilk nümunələrini Molla Qasımın (XIII əsrin sonu XIV əvvələri) və Dirili Qurbanın (XVI əsr ) yaradıcılığında görə bilərik.

Qurbaninin müəllifi olduğu "Yara yüz" təcnisi də fikirlərimizin bariz nümunəsidir:

Qurbani der: Munda gəldim yar üçün,
Kəs, kəs, kabab doğra bağrım, yar için,
Yar odur kim, yardan sonra yar üçün
Zülf dağıda, yaxa yırta, yara yüz! (5, 98)

Onu da xüsusi qeyd edək ki, hər sənətkara təcnis yazmaq qismət olmur. Qurbani, Abbas Tufarqanlı, Xəstə Qasım, Aşıq Alı, Şəmkirli Hüseyn, Aşıq Ələsgər təcnisin ən orijinal nümunələrini yaratmışlar.

Yaddaşlara əbədi həkk olunan Qurbaninin şeirləri insanların hiss və duyğularını, keçirdiyi iztirabları, yaşayış və güzəranını ifadə edir. Bu şeirlərdə insanların ürəyinin döyüntüləri hiss edilir. Məhz buna görə deyilir Qurbani el sənətkarıdır. Yuxarıda da qeyd etmişik ki, Qurbani ozan-qopuz sənətinin aşıq-saz sənəti ilə əvəzləndiyi dövrün sözünü demiş el sənətkarıdır. Şah İsmayıl Xətainin sirdaşı, məsləkdaşı dövrünün ictimai-siyasi proseslərindən kənarda qalmamış, saz-sözü ilə bərabər, müəllifi olduğu bayatılarla da dirçəlişə öz töhfəsini vermişdir.

Əzizim Diri dağı,
Duman, gəl bürü dağı,
Burda bir qərib ölüb,
Yamandı diri dağı (5, 219)

Dağlara duman gələr,
Yağış gələr, çən gələr,
Müdam sazı çalanda,
Yadıma Pərim gələr (5, 220)

Qurbaninin şeirlərinin əsas xüsusiyyətlərindən biri obrazlılıq və bədiilikdir ki, bunları da nümunə göstərdiyimiz aşağıdakı "Gəldim" adlı gəraylıda aydın şəkildə görə bilirik:

Qurbanidir mənim adım,
Mövlamdan aldım uradım,
Sinəndi çarşım, bazarım,
Şəkərə, nabata gəldim (5, 38).

Bilirik ki, əsil sənət nümunələrinin bəzən çap olunmağına ehtiyac belə qalmır, onlar xalqın yaddaşında qorunub saxlanılır, nəsillərdən-nəsillərə ötürülür. Qur-

bani, Abbas Tufarqanlı, Xəstə Qasım, Aşıq Alı, Şəmkirli Hüseyn, Aşıq Ələsgər və digər aşıq poeziyasında öz sözünü demiş ustadların təcnisləri ilə bərabər, digər şeir nümunələri də bu günümüzə qədər gəlib çatmışdır.

Şifahi xalq ədəbiyyatının ən qədim incilərindən biri olan aşıq ədəbiyyatı nümunələri xalqımızın çox əsrlik tarixə malik təcrübəsi əsasında yaranıb formalaşmışdır. Bu poeziya nümunələrinin hər biri mənsub olduğu xalqın həyatını, güzəranını, təbiət və cəmiyyət hadisələrinə baxışını, xalqın keçdiyi tarixi yolu, poetik təfəkkür tərzini müxtəlif ölçüdə ifadə edir.

Akademik Muxtar Kazımoğlu "Xalq gülüşünün poetikası" əsərində yazır: "... Dinləyicini güldürüən aşıq həmin sənətkardır ki, "Dədə Qorqudun" müqəddiməsində bizə öyüd-nəsihət verir, eposun hər boyunu xeyir-dua ilə bitirir:

Yum verəyin, xanım!
Yerli qara dağların yıxılmasın,
Kölgəlicə qaba ağacların kəsilmsin!
Allah verən ümidin üzülməsin! ( 4, 98)

Məhz hər dəfə oxuduqda, tədqiq etdikdə yeni nəticələrin, fikirlərin yaranmasına görədir ki, aşıq ədəbiyyatı və buna bağlı olan tədqiqatlar həm folklorun, həm də yazılı ədəbiyyatın hər zaman gündəmində olan mövzularındandır. Folkloru yazılı ədəbiyyatdan, ya əksinə yazılı ədəiyyatı xalq yaradıcılığından ayrı təsəvvür etmək qeyri-mümkün olduğu kimi, düşünürük ki, aşıq ədəbiyyatını da hər ikisindən ayrı təhlil etmək səmərəli tədqiqat hesab olunmaz. "Kitabi-Dədə Qorqud" ədəbi abidəsi də özündən sonra yaranıb inkişaf etmiş folklor və yazılı ədəbiyyatın inişafına böyük təsir göstərmişdir.

Qurbani də həm aşıq, həm ustad kimi xalq hikmətinə istinad edən, onlardan bəhrələnən sənətkar olub. O, müəllifi olduğu qıfılbənddə və deyişmədə də bundan mahir şəkildə istifadə etmişdir:

O kimdi ki, dünyaya gəlməmişdən,
Onların şəkli var behiştdə,
Adəm də eylədi onlara səcdə,
Onların hesabın bilsən neçədi? (5, 103)

Qurbani xalq ədəbiyyatı nümunələrindən fərqli formalarda da istifadə etmişdir. Birincisi atalar sözləri və məsəllərdən olduğu kimi, öz orijinal variantını saxlamaq şərtilə əsərinə daxil etmiş, digər halda xalq ədəbiyyatı nümunələrində dəyişiklik aparmaqla, yəni məzmunu dəyişərək bəhrələnmişdir. Məsələn, "Bəyan eylədi" adlı cahannaməsində hikmətli sözün məzmununu saxlamaqla mükəmməl şəkildə onu əsərinə daxil etmişdir:

O səkkiz cənnətin biri baqidi,
Altmış üç məsəlin biri baqidi,
Mərifətullahdı, biri saqidi,
Altıncı qüsl bizi asan eylədi (5, 122).

Məhsuldar bir yaradıcılıq yolu keçmiş Qurbaninin aşıq ədəbiyyatının inkişafında əvəzsiz xidməti olumdur. O həm şair, həm də yaradıcı aşıq kimi dövrünün istedadlı sənətkarlarından hesab olunmuşdur. Aşıq şeirinə yeni ruh gətirərək onu xalqının mənəvi tələbatına çevirməyə nail olan ustad sənətkar klassik ədəbi irsin də ənənələrindən məharətlə faydalanmışdır.

Xalq dilinin xüsusiyyətləri, təbiilik və sadəlik kimi keyfiyyətlər Qurbaninin divan yaradıcılığına da xas olan özəlliklərdir.

Qurbani xalqın təfəkkür tərzinin bədii ifadəsi olan, həm də hər sənətkar tərəfindən yazılması məharət tələb edən divan janrına müraciət etmiş, onu əsl sənət nümunəsi kimi yüksək qiymətləndirmişdir:

Gərək biçarə Qurbani, sən bu cəbrə dözəsən,
Əl uzadıb o yasəmən bağdan bir gül üzəsən,
Yaşın yetirdin əlliyə, indi üz tut yüzə sən,
Əslimiz türabidəndir, məskənimiz kan gərək (5, 116).

Məlumdur ki, professor Qəzənfər Kazımovun elmi tədqiqat sahələrindən biri Azərbaycan aşıq şeirinin babası sayılan Qurbaninin poetik irsinin toplanması, tədqiqi və təhlilidir. O, aşığın əsərlərini toplayib çapa hazırlamış, həm doğma Azərbaycan, həm də rus dillərində geniş ön söz və qeydlərlə çap etdirmişdir. Aşığın həyat və yaradıcılığına dair 10-dan artıq elmi-kütləvi məqalənin müəllifidir: "Aşıq Qurbani və məzarı", "Diri kəndi və Qurbani", "Qurbani ənənələri", "Qurbani sənətkarlığı", "Qurbani təxəllüsü", "Qurbani və Xətai"və s. (3, 46).

Aşıq sənətinin inkişafında mühüm rolu olan aşıqlar haqqında hər dövrdə dastanlar deyilmiş, zaman keçdikcə yaddaşlara hopmuşdur. Qurbani də məhz bu cür sənətkarlardandır ki, adına, sözünə, şəxsiyyətinə böyük həcmli bir dastan qoşulmuşdur. Bu və digər dastanlar haqqında müxtəlif versiyalar var ki, dastanı aşıqlar məhz öz adlarına bağlı olaraq yaratmışlar, sonradan cilalanaraq, təkmilləşərək mükəmməllik qazanmışdır. Təbii ki, bunlar da araşdırma tələb edən mövzulardır. Lakin bu bir həqiqətdir ki, kim tərəfindən yaradılmasından asılı olmayaraq "Qurbani"dastanı daxil, "Xəstə Qasım", "Abbas və Gülgəz", "Yaxşı və aşıq", "Vaqifin dastanı", "Mahmud və Ağcaquş" və digər dastanlar ədəbiyyatımızın təməlində dayanan zəruri nümunələrdir.

**Ədəbiyyat:**

1. Əliyev R. Ədəbiyyat nəzəriyyəsi. Bakı: Mütərcim nəş., 2008, 360 s.
2. Xəlilov N. Heca vəzni və aşıq sənətinin yaranma tarixi. Bakı: BDU nəş., 2014, 132 s.
3. Kazımov Q. Seçilmiş əsərləri.I cild. Bakı: Nurlan nəş., 2008, 711 s. .
4. Kazımoğlu M. Xalq gülüşünün poetikası. Bakı: Elm nəş., 2006, 268 s.
5. Qurbani. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb nəş., 2006, 232 s.

**Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent Sevinc Əliyeva**